

# Qüdrətli Azərbaycana gedən yolun başlanğıcı

**Xalqımızın Ulu Öndəri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər bir dövr respublikamızın tarixinə qürurdoğuran hadisələrlə, möhtəşəm uğurlarla həkk olunub. Sovet dövründə Azərbaycanı geridə qalmış aqrar respublikadan ittifaqın sənaye mərkəzlərindən birinə çevirən Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimizi xilas edib, müasir Azərbaycan dövlətini yaradıb.**

## Müstəqillik mücadiləsinin yeni mərhələsi

Elə buna görə də Heydər Əliyevin adı ilə bağlı olan hər bir tarix, hər bir əlamətdar hadisə bizim üçün doğma və əzizdir. Çünki həmin tarixlərin, hadisələrin hər biri Azərbaycanın müasir tarixinin dönüş nöqtələridir, inkişafın, yüksəlişin, güclü dövlətçiliyin təməl günləridir. Ölkə ictimaiyyəti tərəfindən həmin günlər hər zaman böyük minnətdarlıq hissi ilə xatırlanır.

Heydər Əliyevin 1990-cı il iyulun 22-də doğulub boya-başa çatdığı Naxçıvana gəlişi də tariximizin əlamətdar günlərindən biridir. Həmin vaxt Heydər Əliyev Naxçıvanda böyük coşqu ilə qarşılanmışdı. Və bu coşqu ilk növbədə Heydər Əliyevin ictimaiyyət arasındakı yüksək nüfuzunun, Azərbaycan xalqının öz dahi oğluna olan dərin ehtiramının təcəssümünə çevrilmişdi. Çünki Heydər Əliyev buna qədər harada və hansı vəzifədə çalışmasından asılı olmayaraq öz dövlətinin və xalqının rifahı, yüksəlişi üçün çalışmış, Azərbaycanın inkişafına və intibahına nail olmuşdu. O cümlədən Naxçıvan Muxtar Respublikasının ötən əsrin 70-ci illərindən əldə etdiyi sosial-iqtisadi nailiyyətlər Heydər Əliyevin respublikamıza müdrik rəhbərliyinin nəticəsi idi.

Heydər Əliyevin Naxçıvana qayıdışı həm də getdikcə vüsət alan milli azadlıq mücadiləsi dövrünə qədəm qoymuşdu. Əslində bu prosesin də inkişafında Heydər Əliyevin böyük xidmətləri vardı. Belə ki, hələ 20 yanvar hadisələrindən sonra Ulu Öndərin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet ordusu tərəfindən Bakıda törədilən cinayətə görə sərt etirazını bildirməsi, baş verənlərdə SSRİ rəhbərliyinin məsuliyyət daşıdıcını cəsarətlə bəyan etməsi milli azadlıq mücadiləsinə də böyük təkan vermişdi. Heydər Əliyevin cəsarəti Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparanları daha da ruhlandırmış, onlar üçün mühüm stimul olmuşdu.

Dahi siyasətçinin 1990-cı il iyul ayının 20-də Moskvadan Azərbaycana qayıdışı və bundan iki gün sonra Naxçıvana gəlişi isə respublikamızda baş qaldırmış müstəqillik mücadiləsinin yeni mərhələyə qədəm qoymasının başlanğıcına çevrildi. Heydər Əliyevin həmin il Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilməsi Ulu Öndərin yenidən böyük siyasətə qayıdışı olmaqla yanaşı, azadlıq mücadiləsinə də böyük təkan verdi.

## Xalqın ehtiram və etimadı

Qeyd edək ki, Heydər Əliyevin Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilməsi xalqımızın Ulu Öndərə böyük ehtiram və etimadı idi. Həmin vaxt öz seçicilərinə göndərdiyi məktubunda deputatlığa namizədliyinin irəli sürülməsinə razılıq verən Ulu Öndər həm də Azərbaycanın gələcəyi ilə bağlı özünün siyasi platformasını belə ifadə etmişdi: *"Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır".*

Elə bu məktubda yer alan müstəqilliklə bağlı fikirlər cəsarətin, hünərin nümunəsidir. Bunu isə yalnız Heydər Əliyev kimi dahi, öz xalqının yolunda mübarizlik nümunəsinə çevrilən nəhəng siyasi xadimlər edə bilərdilər. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisindəki fəaliyyəti də məhz müstəqillik ideyalarının reallaşmasına xidmət etdi. Məhz Ulu Öndərin qətiyyətinin və prinsipiallığı sayəsində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının rəsmi bayrağı kimi təsbit olunması, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, bütövlükdə sovet atributlarından imtina edilməsi, 20 yanvar faciəsinə ilk dəfə olaraq siyasi-hüquqi qiymətin verilməsi, 1991-ci ilin fevralında SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi sıradan deyil, olduqca mühüm siyasi hadisələrdir. O dövrdə bütün bunları etmək böyük qəhrəmanlıq, cəsarət və hünər tələb edirdi. Bu, Ulu Öndərin daşıdığı yüksək milli və mənəvi dəyərlərdən, reallaşacağına əmin olduğu və inandığı müstəqillik ideyalarından xəbər verirdi. Və bu gün dönüb tarixə baxanda, prosesləri təhlil edəndə Ulu Öndər Heydər Əliyevin nə qədər böyük, vətənpərvər, əsl milli lider olduğunu görürük. Bütün bunlar isə xalqımızın Heydər Əliyevin müəllifliyi və liderliyi ilə yazılan müasir dövlətçilik tariximizin parlaq səhifələridir. Dövlətçiliyimizin belə səhifələri isə gələcək nəsillər üçün nümunədir, mayakdır.

Əbədiyaşar şəxsiyyət Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri seçilməsi isə nəinki Naxçıvanın, bütün Azərbaycanın həyatında mühüm siyasi hadisə oldu. Məlum olduğu kimi, sovetlərin sonu yaxınlaşdıqca, Ermənistan respublikamızın digər ərazilərində olduğu kimi, Naxçıvan istiqamətində də hərbi təxribatlarını artırırdı. Belə vəziyyətdə Azərbaycanın mərkəzi hakimiyyətinin qətiyyətsizliyi torpaqlarımızın işğalına daha geniş zəmin yaradır, Naxçıvan isə həm də taleyin ümidinə buraxılmış tənha gəmini xatırladırdı. Həmin vaxtlar ermənilər Naxçıvanın sərhəd kəndlərinə qarşı hərbi təcavüzü artırır, tez-tez silahlı basqınlar edir, təsərrüfatlara ziyan vurur, dinc sakinləri girov götürürdülər.

1991-ci ilin sonlarına doğru Heydər Əliyevin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, həm də müstəqil Azərbaycanda ordu quruculuğu prosesinin başlanğıcı oldu. Lakin müstəqilliyimizin ilk illərində respublikamıza rəhbərlik etmiş siyasi qruplardan fərqli olaraq Heydər Əliyevin həyata keçirdiyi ordu quruculuğu düzgün təməllər üzərində həyata keçirilmişdi və vahid komandanlığa əsaslanırdı.

Heydər Əliyevin uzaqgörənliyi nəticəsində görülən tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı fəlakətlərdən xilas etdi. Türkiyə və İranla əlaqələrin qurulması, Araz çayı üzərində "Ümid körpüsü"nün salınması, keçmiş sovet ordusunun hissələrinin muxtar respublikadan çıxarılması və onlara məxsus hərbi texnika və sursatın təhvil alınması Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün möhtəşəm nümunələridir.

## Qalib dövlət

Müstəqilliyimizin ilk illərində ölkədə cərəyan edən ağır siyasi-hərbi proseslər, bütün sahələri cənginə almış dərin böhran orta və yaşlı nəslin xatirindədir. Bir tərəfdən torpaqlarımız işğal olunur, digər tərəfdən ölkədə separatçılıq meyilləri baş alıb gedirdi. Hakimiyyətdə olan qruplar ölkəni tənəzzül, məhvolma astanasına gətirib çıxarmışdılar. Nəinki müstəqilliyimiz təhlükə altında idi, ölkəmiz parçalanmanın astanasında idi.

Həmin böhranlı günlərdə xalqın gələcəyə olan ümidini yaşadan yalnız Heydər Əliyev şəxsiyyəti idi. Bütün ölkə ictimaiyyəti inanırdı ki, Azərbaycanı düşdüyü vəziyyətdən məhz Heydər Əliyev xilas edə bilər. Bu məqsədlə Ulu Öndərin ünvanına Azərbaycanın hər yerindən saysız-hesabsız məktublar ünvanlanırdı. 1992-ci il noyabr ayının 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının təsis olunması da Ulu Öndərə olan inamın təcəssümü idi.

1990-cı il iyulun 22-də Naxçıvana qayıtdıqdan sonra xalqımızın müstəqillik mübarizəsinin möhtəşəm salnaməsini yaradan, Muxtar Respublikanı Ermənistanın işğalından qoruyan Heydər Əliyev 1993-cü ildə qurtuluş missiyasını da şərəflə yerinə yetirərək, dövlətçilimizi sarsılmaz, müstəqilliyimizi əbədi etdi. Naxçıvana və böyük siyasətə qayıtdıqdan sonra başladığı tarixi missiya ilə Heydər Əliyev həm də Azərbaycan dövlətinin memarına və xalqımızın ümummilli liderinə çevrildi.

Ulu Öndərin müəyyən etdiyi siyasi kurs və inkişaf strategiyası, dövlətçilik xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, layiqincə yaşadılır. Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan dövləti bu gün bölgədə lider, dünyada söz sahibidir. Bu siyasət həm də torpaqlarımızın işğaldan azadlığını təmin edib, Azərbaycanı dünyanın qalib dövlətinə çevirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nail olduğu hər bir uğur getdiyimiz yolun düzgünlüyünün təcəssümü olmaqla yanaşı, belə bir həqiqəti ortaya qoyur ki, Heydər Əliyev siyasətinin davamı bu günümüzün və gələcəyimizin yeganə təminatçısıdır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*